# Ölkəmizi tanıyaq

## Qəbələ məktəbliləri tur-səfərinə yola salınıblar

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün təşkil olunmuş "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Qəbələ məktəblilərinin noyabrın 18-də Quba, Qusar və Xaçmaz rayonlarına tur-səfərlərinə yola salınması mərasimi keçirilmişdir.***

Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunan yola salma mərasimində rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri- RİH başçısının müavini Ətayə Osmanova Prezident İlham Əliyevin tapşırığına əsasən təşkil olunan aksiyanın






əhəmiyyətindən söz açmışdır. Qeyd olunmuşdur ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar da məhz bu amala xidmət edir.

Mərasimdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxış edərək diqqətə çatdırmışdır ki, layihənin həyata keçirilməsi ölkə gənclərinin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunması, məktəblilərin dünyagörüşünün daha da zənginləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə çıxış edən valideyin Kəbirə Cabbarova qeyd etmişdir ki, keçirilən tur-aksiyalar ölkə prezidenti cənab İlham Əliyevin gənc nəslin hər tərəfli vətəndaş kimi yetişməsinə göstərdiyi qayğısının təzahürüdür. Bizim balalarımız bu tur aksiyada vətənimizi daha yaxından tanıyacaqlar. O, aksiyanın keçirilməsinə xüsusi diqqətə yanaşan ölkə başçısına bütün valideynlər adından minnətdarlığını bildirmişdir.

Toplantıda Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Nailə Qasımzadə respublikamızın bir çox bölgələrində olduğunu, bu tur-aksiyada isə məktəblilərlə birgə Quba, Qusar və Xaçmaz rayonlarının təbiəti, görməli yerləri ilə tanış olacağını, bu yerlərin tarixi, adət-ənənələri, inkişafı barədə zəngin məlumatlar əldə edəcəyini deyib.

Daha sonra tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzmüşlər.

Yolasalma mərasimində iştirak edən valideynlər və məktəblilər ölkə başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Sonda tur-aksiyada iştirak edən şagirdlər musiqi sədaları altında onlar üçün ayrılmış xüsusi avtobusla Quba istiqamətinə yola düşüblər.

**"Qəbələ"**

## Qəbələ tur-aksiyanın növbəti iştirakçılarını qəbul edib

Prezident İlham Əliyevin tövsiyəsinə əsasən "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi çərçivəsində Qəbələ-Şəki-Zaqatala



marşrutu üzrə ekskursiyaya çıxan 10 rayonun məktəblilərindən ibarət qruplar noyabrın 18-də günorta saatlarında Qəbələ şəhərinə gəliblər.

"Karvansaray" və "Qafqaz Sport" otellərində yerləşən Ağdaş, Füzuli, Göygöl, Siyəzən, Tovuz, Quba, Qusar, Şabran, Xaçmaz və Xızı rayonlarının məktəbliləri nahardan sonra Qəbələ rayonu ilə tanışlığa başlayıblar. Məktəblilər əvvəlcə Qəbələ şəhərindəki Zərifə Əliyeva prospektinin ərazisində, Dəmiraparan çayının sahilində ağacəkmə aksiyasında iştirak ediblər.

Tur-aksiya iştirakçılarının Qəbələnin görməli yerləri ilə ilk tanışlığı Yengicə kəndindəki zooparka ekskursiya ilə başlayıb. Məktəblilərə burada saxlanılan heyvanlar barədə məlumat verilib.

Sonra məktəblilər rayonun məşhur istirahət məkanlarından olan Nohur gölünə səyahət ediblər. Bildirilib ki, dəniz səviyyəsindən 700 metr hündürlükdə yerləşən Nohur gölünün ətrafı sıx meşələr və dağlarla əhatə olunub. Sahəsi 240 hektar olan gölün dərinliyi 24 metr, suyunun həcmi isə 16 milyon kubmetrdir. Nohur gölünə Dəmiraparan və Vəndam çaylarının suyu axır.

Məktəblilər ekskursiyanın növbəti günlərində Qəbələ rayonunun tarixi yerləri ilə tanış olub, görməli yerlərini gəziblər.

**"Qəbələ"**

## Qəbələ məktəbliləri şimal bölgəsinə ekskursiyaya Qubadan başlayıb

Dövlət başçısının tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində noyabrın 18-də ölkəmizin şimal bölgəsinə ekskursiyaya yola düşən məktəblilərimiz Qubada qarşılanıblar.

Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ümummilli liderin abidəsini ziyarət etdikdən sonra məktəblilərə rayon haqqında



ətraflı məlumat verilib.

Bildirilib ki, ölkəmizin digər regionlarında olduğu kimi, Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar və emal sahələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır.

Məktəblilərin diqqətinə çatdırıblar ki, Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda yerləşən "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəz təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir.

Qarşılanma mərasimindən sonra Heydər Əliyev Mərkəzinə gələn tur-aksiya iştirakçıları burada ulu öndərin həyat və fəaliyyətini əks etdirən muzeyə baxıblar. Daha sonra şagirdlər Gənclər Mərkəzi ilə yaxından tanış olublar.

**"Qəbələ"**

## *Qrup rəhbəri: Tur-aksiyanın böyük əhəmiyyəti var*

*"Sevindirici haldır ki, ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları gözəl ənənə halını alıb. Layihənin proqramına uyğun olaraq şagirdlərimiz maariflənir, dünya görüşlərini artırır, eyni zamanda, Azərbaycanın dilbər guşələri ilə daha yaxından tanış olmaq imkanı əldə edirlər. Bu dəfə məktəblilərimiz dörd gün ərzində Quba, Qusar, Xaçmaz rayonlarının görməli*



*yerlərinə ekskursiyada iştirak edirlər. Əminəm ki, dörd gün davam edəcək maraqlı səyahət onların yaddaşında silinməz izlər buraxacaq".*

*Bu sözləri jurnalistlərlə müsahibəsində "Ölkəmizi tanıyaq" devizi ilə Quba-Qusar-Xaçmaz marşrutu üzrə keçirilən maarifləndirici tur-aksiyada məktəblilərimizin qrup rəhbəri kimi iştirak edən Zahir Kərimov söyləyib.*

*O, bildirib ki, bu ekskursiyalar ölkəmizin tarixini dərindən öyrənməklə yanaşı, Prezident İlham Əliyevin həyata keçirdiyi dinamik sosial-iqtisadi inkişafı hər bir şəhər və rayonun timsalında görmək imkanı yaradır.*

***"Qəbələ"***

## Qəbələ məktəbliləri şimal bölgəsinin görməli yerlərini gəziblər

Noyabrın 19-da maarifləndirici tur-aksiyada iştirak edən məktəblilərimiz qədim Quba və Azərbaycanın şimal qapısı sayılan Qusarla tanış olublar.

Ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayan şagirdlərin diqqətinə çatdırılıb ki, uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam məskunlaşması-nın tarixi XVIII əsrin ortalarına təsadüf edir.

Şagirdlər qəsəbədəki Heydər Əliyev parkını gəzib, sinaqoqla, eləcə də Qudyalçayın üzərindəki Tağlı körpü ilə tanış olublar.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsini, zəngin memarlıq üslubuna malik Cümə məscidini, Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib, "ABAD Factory" İstehsalat Kompleksi ilə yaxından tanış olublar.

Günün ikinci yarısında məktəblilər Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

**"Qəbələ"**